# CAMAL ZEYNALOĞLU - 60

**Hörmətli Camal Zeynaloğlu!**



Sizi - Camalxan Zeynal oğlu Zeynalovu 60 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz 1 aprel 1958-ci ildə Cəlilabad rayonunun Albalan kəndində anadan olmusunuz.

1975-ci ildə Cəlilabad rayon Alar kənd orta məktəbini, 1980-ci ildə isə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun ingilis-alman fakültəsini bitirmisiniz.

Tərcümə əsərləri ilə ədəbiyyata gəlmisiniz. 1979 - 1985-ci illərdə İngilis - Amerikan ədəbiyyatının tanınmış yazıçıları olan Aqata Kristinin "Baş nazirin oğurlanması", "Bir milyon dollar istiqrazın oğurlanması", "Mavi kuzənin sirri", A.K.Doylun "Brilyant tac", "Göy yaqut", Oskar Uayldin "Nümunəvi dilənçi", Çek Londonun "Meksikalı", A.C.Kroninin "İki veronalı", Ernest Heminqueyin "Qatillər", S.Moemin "Muzdlu tərəfdaşlar", Cessi Stuartin "Məhəbbət", Uilyam Sarovanın "Filippinli və sərxoş" əsərlərini Azərbaycan dilinə tərcümə etmisiniz. Həmin əsərlər ayrı-ayrı illərdə Azərbaycan mətbuatında, "Dünya" və "Mütərcim" jurnallarında dərc olunub.

1993-2001-ci illərdə Azərbaycan mətbuatında - "Mühakimə" ictimai-siyasi hüquq qəzetində müxbir, şöbə müdiri, "Son söz" qəzetində baş redaktor, "Mister - X" qəzetində baş redaktor, "Axşam" qəzetində redaktor vəzifəsində çalışıbsınız.

"Uğursuz nigah", "Məni qınamayın", "Qanlı fevral gecəsi", "Ölümlə üz-üzə", "Tanrı cəzası", "Həqiqət işığında", "Nakam məhəbbət", "Cəsur kəşfiyyatçı, igid partizan", "Snayper qız", ümumilikdə iyirmidən çox kitabın, 200-ə yaxın publisist məqalənin, 40-dan çox cinayət oçerkinin müəllifisiniz. Onlarla media mükafatlarına layiq görülmüsünüz.

2001-ci ildən yaradıcılığınızı davam etdirməklə AzPetrol Şirkətində İctimai Əlaqələr şöbəsinin Mətbuat katibi vəzifəsində işləyirsiniz.

1995-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2008-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz.

**Hörmətli Camal Zeynaloğlu!**

Sizi bir daha 60 yaşınızın tamam olması münasibətilə təbrik edir, uzun ömür, can sağlığı, yaradıcılığınızda bol-bol uğurlar arzulayırıq.

***"Xəzan" ədəbi-bədii jurnalı***